# Nə vərdişim ol, nə də məcburiyyətim...

Yanımda əyləşmişdin. Ürəyim necə döyünürdüsə, eşidəcəksən deyə qorxuya düşmüşdüm...

Tələbəlik qədər gözəl status yoxdur, tələbələrin fikrincə. Tələbə olmaq insanın azadlığı və sevgini dərindən yaşaması üçün Allahın ona gənc yaşda verdiyi imkandır. Deyirlər ki, insan dörd yaşına kimi almalı olduğu məlumatın 90%-ni öyrənir. Tələbə ikən nələr öyrənir onu bircə tələbələr bilər. Hekayəm gəncliyi tələbəliklə qovuşan bir nəfər haqqındadır.

Sevda yenə günə qarışıq fikirlərlə başlamışdı. "Maraqlıdır, beyinin qəbul etmədiyi bir şeyi ürək necə daşıyır, görəsən? Necə ki ağır yükü daşıya bilirsən, amma daşısan yorulacaqsan fikirləşirsən. Bəlkə də həyat bu deməkdir. Nə bilim". Sonra gecikəcəyini nəzərə alıb hazırlığını sürətləndirdi. Saç ütüsünü soyuması üçün yerə qoyub mətbəxə tələsdi. Səhərlər acmazdı, lakin bir yumurta ilə şirin çay içməyi məktəb vaxtından vərdiş etmişdi. İnsan böyüdükcə vərdişləri də çoxalır, məcburiyyətləri də.

Dərsə hamıdan əvvəl Sevda gəlirdi. Boş otaqda əyləşib ya dərsini təkrarlayar, ya da qrup yoldaşlarının gəlməsini gözləyərdi. Təklikdə həmişə fikirləşdiyi düşüncələri yenə ona rahatlıq vermirdi. Bir dərs daha öz axarında davam edirdi. Dərslər həmişə axarında gedir: - Qələmin var?

- Artıq bir dənə var. Gözlə verirəm.
- Dünənki məsələ nə yerdə qaldı?
- Maraqlanmadım. Sən də boş ver getsin.

Beləcə, tələbələrin az qala hər günündə yer alan dərslər kimisi üçün uzun, kimisi üçün də qısa idi. Müəllimlər bizimlə biliklərini, bildiklərini, ömürlərini, zamanlarını paylaşırlar. Bəzən zehnimizin dincəlməsi üçün həyatlarının ən təsirli hissələrindən nümunələr gətirmələri çox səmimi idi. Sevda bir müəlliminin tələbə ikən, anasının avtobusu saxlatdırıb cib dəsmalını ona çatdırmasını, digərinin isə evə gec gəldiyi zaman yenə də anasını qapıda yatan görüb təsirləndiyi anları unutmayacaqdı. Belə anlarda düşünməyə bilmirdi: "Sevgi nə idi? Bir filmdə deyildiyi kimi sevgi yaxşılıqdır, dostluqdur, əməkdir. Bizi valideynlərimiz qədər heç kim sevə bilməz. Bu qətidir". Vicdanından asılı olaraq bu peşədə də məcburiyyət, vərdiş və məsuliyyət var. Təhsil isə uğur istəyir, irəliləməyini tələb edir. Təhsil insanı yarı yolda qoymur, qoya da bilməz. Bizim insanımız belə düşünür. Təhsil hər şeydir. Onu narahat edən məsələ ilə bağlı heç kim ona kömək edə bilmirdi, təhsil belə. Sevda bu fikirdə idi ki, düşüncələr genetikdir. Ali təhsilli özünü idarəni bacarmayan o qədər adam var ki. Bəs xoşbəxtlik? Çox qəliz məsələdir. O da genetik ola bilərmi? Buna cavab vermək çətindir.

"Əgər uğur xoşbəxtlikdən ayrı nəfəs alırsa, mən yenə də xoşbəxt olmaq istəyərdim. Çünki ürəyim gülsə, üzüm gülər, üzüm gülsə, mən uğuru oksigensiz də yaşadaram".

Onu koridorda gördükdə beyni ilə ürəyi həmişə olduğu kimi mübarizə aparmağa başladı. Üz-üzə gəldilər və yanından ötüb keçdi. Əgər seçmək şansı olsaydı onu seçməzdi. Sevda bunu Allah vergisi də adlandırırdı. Necə ki ürəyin səndən xəbərsiz döyünür, onun sürətlənməsinə də səbəbkar yalnız yaradandır. Arada anası ilə danışması onu rahatladardı: - Ana, dünyada hər şeyin sonu var. Fikirləşirəm sonu olmayan nədir? Tapa bilmirəm.

- Sonu olmayan sonsuzluqdur, yəni kainat.
- O da dünyadan kənarda oldu. Eh, dünyada hər şey fanidir.

Bu danışıqlar onu təsəlli edə bilmirdi. Mümkünsüz olan hər şeyin təsəlliyə ehtiyacı varmı? Yəqin ki, həyatda olmadığımız vaxt buna ehtiyacımız olmayacaq. Qarşısındakını əslində bir uşaq saflığı ilə çox istəyirdi. Başqa cür adlandırmağa onun cəsarəti də çatmazdı. Əgər qorumağa çalışdığın saflıqdırsa, ehtiyatlı olmalısan. Saf olan hər şey gözəldir...

Bir gün necə oldusa bir partada əyləşməli olmuşdular. Təsadüfün beləsi. Elə insanlar var təsadüfə inanmırlar. Zərurət var deməklərinə görə təsadüf yox. Hər şeyin bir səbəbi var və o səbəbdən də ehtiyac yaranır və s. Onları birləşdirən nə idisə - səbəb, təsadüf, zərurət fərqi yoxdur, Sevda onlara təşəkkür edirdi. Qruplar birləşmişdi və o, onun yanında əyləşmək üçün icazə istəmişdi: - Olar?

- Buyur.

Sevdanın gəldiyi dünyaya üç-dörd il gecikməyinin səbəbi nə idi? Yaxşı ki, hər şeyin səbəbi var. Yoxsa, bizim üçün xeyirlisi olmazdı. Xeyirlisi deyilsə, biz niyə qarşılaşırıq? Yenə də səbəblər, səbəblər. O anda hər ikisinin daxili nitqini eşitmək olsaydı, yəqin ki, maneə hesab etdikləri nə idisə, o da aradan çəkilərdi. Bircə, bir-birlərini eşidəydilər. Sevda sağ tərəfində əyləşənin həyəcanını hiss edirdi: "Əllərini ovuşdururdu tez-tez. Bu, hərəkətlərində səmimi və uşaqlıq edən kəs necə də sevgiyə layiq idi. Arada başını çarpazlaşdırdığı qollarının üstünə qoyub üzünü gizlətməyini demirəm hələ. Kobud əllər və sərt saç bir insana bu qədərmi yaraşar. Səni həyəcanlandırdığım üçün üzr istəyirəm".

Sevdanın tələbəlikdə son günündə, qarşı-qarşıya gəldikdə nə qədər dayandıqlarını demək çətin olar. Sanki zaman da onlara kömək edib dayanmışdı. Sevda sonradan xatırladıqda da dəqiq deyə bilmirdi nə qədər vaxt keçmişdi.

Tələbə: "Bəlkə ümid var. Mən əmin idim axı, o məni bəyənmişdi"...

Sevda: "Bu xaoslu, vacib problemlər olan dünyada kaş biləydin mənim üçün nə qədər qiymətlisən. Kaş ki başqa yerdə rastlaşaydıq və səndən daha gec dünyaya gəlmiş olaydım. Mən nakam sevgilərin çoxundan eşitmişəm bu sözləri – başqa yerdə, tez və gec. Lakin bunlar sənin məndə olan dəyərinə xələl gətirmir".

Tələbə: "O məni sevmirmiş, imkanım olmadı ki, sözümü deyim".

Sevda: "Ürəyimdəkini eşitmirsən deyə sənə, dilimə gətirməyə cəsarətim olmadığı üçün də özümə acığım tutur".

Tələbə: "Yanılmışam, hər şeyi səhv başa düşmüşəm. Mənə etdiyi bir jesti necə sevgi deyə başa düşərəm axı".

Sevda: "Səni görmək belə mənə xoş idi.".

Tələbə: "Daha getməyin vaxtı gəlib, gözləməklə nəyəsə nail ola bilməyəcəm. O heç vaxt mənim yanımda olmağa razı olmaz".

Sevda: "Sənin üçün indidən darıxan bu qızı unutma".

Gözəl belə olsa, yanında belə olsa, keçən günlərdə qalan hər şey kövrəldir məni. Adı ağırdır – keçmiş. Necə ki, sevdiyim bir insan dünyasını dəyişdi, onun geri gələ bilməyəcəyini bilmək qədər əzablıdır keçmiş. Amma o insan səninlə eyni dünyadadırsa, onu bir də görə bilməyəcəyinə inanmaq ümidlərini öldürməkdir. Hamının xeyrinə olsun deyə bəzən məcbur olmaq lazımdır. Özümüzü qanunlara tabe etmək bizim vərdişimiz olub...

Görəsən, birini qaydadan kənar çox istəmək günahlar sırasına girirmi? İstisnalar qaydaları pozurmu? Birini görmək üçün bəhanə ilə, özünü inandıraraq qarşısına çıxmaq onun tərəfindən dəstəklənərmi? Yolumuzu dəyişsək belə getmədik deyə peşman olmaq insanlıq halıdırmı? Yaşının böyük olması böyüklərimizin hər zaman düz hərəkət etdiklərinimi göstərir?Dünyanın təməli sevgi ilə qurulubsa, sevgi məcburiyyət ola bilərmi? Allahın sevgi ilə yaratdığı insan niyə bu sözü səsləndirməkdən çəkinir?!



***Söylü AĞAZADƏ,***
***magistr-filoloq, Neftçala***

Kredo 2020.- 17 fevral.- S.10.